**FƏLSƏFƏ VƏ SOSİOLOGİYA**

**UOT 3.31**

# BULLİNQ VƏ MOBBİNQ SOSİAL ŞİDDƏTİN FƏRQLİ TƏRƏFLƏRİ KİMİ

**Mehin NƏSİBOVA***

Məqalə redaksiyaya daxil olmuşdur: 26 aprel 2025; çapa qəbul edilmişdir: 17 iyul 2025; online-da çap edilmişdir: 23 sentyabr 2025.

Received: 26th of April, 2025; accepted: 17th of Jule, 2025; published online: 23th of September, 2025.

**Açar sözlər:** *bullinq, psixoloji, mobbinq, qeyri-adekvat davranış, diskriminasiya*

## Giriş

Son dövrlərdə orta təhsil müəssisələrində bullinq şagirdlər arasında tez-tez rast gəlinən psixoloji və sosial problem olmaqda davam edir. Bullinqin fəsadları şagirdlərin akademik nailiyyətlərinə mənfi təsir etməklə yanaşı, onların psixi və fiziki sağlamlığına da zərər vurur. Bullinq bir şagirdin digər şagirdə və ya qrupa qarşı fiziki və mənəvi zərər vurması, yaxud bir şagirdin təklənərək izolə edilməsidir. Davamlı təkrarlanan xaricetmə hərəkətləri bullinqə məruz qalan məktəblinin emosional travma yaşamasına səbəb olur.

İlk zamanlar bullinqə yanaşma tərzi müxtəlif olmuşdur. Bəzi mənbələrdə bullinq "mobbinq" termini ilə eynilik təşkil edirdi. Lakin bir müddət sonra bullinq və mobbinqin fərqli mənalar ifadə etdiyi müəyyən edildi.

Məqalədə bullinqin yaranması, xüsusiyyətləri, həmçinin mobbinqin tarixinə baxış öz əksini tapır. Eyni zamanda, mobbinq və bullinqin oxşar funksiyaları da analiz edilir.

## 1. Cəmiyyətdə bullinqin formalaşması problemləri

Bullinqin hərfi mənası bir şəxsin bir və ya bir neçə qrup üzvü tərəfindən təklənməsi, qrupa itaət etməyə məcbur edilməsi, subyektin uzun müddət gərginliyə məruz qoyulması, aqressorla qurban arasındakı qeyri-bərabərliyi təsvir edir.

UNICEF isə bullinqi uşaqların bir-birinə qarşı fiziki və ya mənəvi hücum edərək zərər verməsi və seçilən hədəfin təklənərək qrupdan xaric edilməsinə səbəb olması kimi izah edir. Özünü qrupun lideri hesab edən uşaq xarakter baxımından sakit, ictimai imkanları zəif olan və ətrafında dostu olmayan uşağa və ya yeniyetməyə basqı edərək, onu tabe etməyə, müti vəziyyətdə saxlamağa çalışır. "Buller" və ya təzyiq və şiddət göstərən tərəf həmyaşıdının özünümüdafiə mexanizminin zəifliyini bildiyindən qurbanı asanlıqla təsir altına salır.

Bu mövqedən yanaşaraq qeyd etmək olar ki, sosial nüfuzu yüksək olan və ətrafına çoxlu dost toplayan şagird dəfələrlə və müddətsiz olaraq utancaq şagirdə qarşı bullinq törədir.

Uşaqlıqda bullinqlə üzləşən şəxs gənclik dövründə ətrafındakı adamlara, ümumiy-

*doktorant, Azərbaycan Milli Elmlər Akademiya*
*e-mail:* mehin_nasibova@mail.ru
**https://doi.org/10.30546/25194011.2025.14.4.001**

yətlə, heç kimə inanmır, hətta dostluq etməkdə çətinlik çəkir. Bir növ özünü cəmiyyətdən təcrid edilmiş hiss edir.

Məktəb mühitində şagirdlər arasında yaranmış hər hansı gərginlik və ya psixoloji vəziyyətlə qarşılaşarkən, yaranmış münaqişəni təyin etmək üçün ilk növbədə bullinq olub-olmadığını müəyyən etmək lazımdır. Belə ki, bullinqin özünəməxsus funksiyaları və təyinedici xüsusiyyətləri vardır. Bullinqi təyin etmək üçün bir neçə davranış tipi nəzərə alınmalıdır:

Təkrarlanan;

Fiziki və ya emosional olaraq incitməyi nəzərdə tutan;

Adətən, müəyyən qruplara yönəlir – irq, din, fiziki və əqli qüsurlu olanlara, gender və ya cinsi oriyentasiyaya görə.

Orta təhsil müəssisəsində yeniyetmələr arasında yaşanan bullinq hadisəsinə nəzər salaq. “Beşinci sinifdə oxuyan 11 yaşlı oğlan sinif yoldaşı tərəfindən qısnandığını söyləyir. Sinifdə fiziki cəhətdən güclü və nüfuzu yüksək olan şagird zəif və utancaq həmyaşıdına qarşı tez-tez fiziki bullinq edərək, qurbanla təsadüfən toqquşur və yerə yıxılmağa məcbur etməklə yanaşı, yüksək səslə gülərək ətrafdakı yoldaşlarının da diqqətini bu situasiyaya yönəldir və şagirdlərin ona rişxəndlə baxmasına zəmin yaradır”.

Məktəb mühitində yaşanan digər bir situasiyaya nəzər salaq. Orta təhsil müəssisəsinin beşinci sinfində oxuyan 11 yaşlı qız məktəbdə qısnanma ilə qarşılaşdığını belə təsvir etmişdir: “Eynək taxdığıma görə əksər şagirdlər tərəfindən bullinqə uğ-rayırdım. Dəhlizdə gedərkən bəzi məktəblilər mənə baxıb gülür, mənə ləqəb qoşurdular. Bu hal məndə baş ağrıları yaradırdı, hətta məktəbə getməkdən imtina etmək istəyirdim”. Lakin məktəb psixoloqu və müəllimin dəstəyi ilə yaranmış problemin həllinə nail olunmuşdur.

Bullinq aqressiv davranış növüdür. Bullinq zamanı *“buller”* ilə qurban arasında *“disbalans”* yaranır; belə ki, buller təhdidlər və basqı edərək qurbanı öz təsiri altına alır, bununla da güc qazanmış olur. Bu disbalans real və ya qavranılmış formada həyata keçirilir və hədəfi öncədən müəyyən edən buller öz qurbanının psixologiyasına bələd olduğu üçün niyyətinə çatmış olur.

Əgər buller zorakılıq vəziyyətinə şərait yaratmazdan öncə özünü bullinq qurbanının yerinə qoysa, bullinq baş verməz. Belə ki, bullinq halının yaşanmaması üçün bullerdə empatiya hissinin olması vacibdir. Çünki əgər o, nə vaxtsa özünün bullinqə məruz qaldığını və ya qalacağını dərk etmiş olarsa, bullinq vəziyyəti yaratmaz. Bu səbəbdən də empatiya hissinin hər bir insanda olması vacibdir ki, başqasının hisslərinə şərik olsun. Empatiya fərdlərin mənəvi birliyinin əsası kimi çıxış edir və başqalarının yaşadığı emosional vəziyyətə müvafiq reaksiya vermək empatiya adlanır [2, s.166].

Valideynlər övladlarında uşaq yaşlarından empatiya hissini formalaşdırmağa başlasalar, bullinq kimi hallar baş verməz. Qeyd edildiyi kimi, empatiya özünü başqasının yerinə qoyma və onun vəziyyətini özününkü kimi hiss etməklə, qarşıdakının hisslərinə şərik olmaqdır. Eyni zamanda, digərlərinin emosiyalarına həssas yanaşan fərd duyğu reseptorları (eşitmə, görmə, qorxu, həyəcan) vasitəsilə və ya digər emosiyalar, eləcə də mübahisə və münaqişələrin dayandırılması, dinləmək və anlamaq mədəniyyətinin inkişafı əsasında qrup daxilində həssas insanlar kimi formalaşırlar.

Ailədə düzgün tərbiyə üsulu ilə övladını böyüdən valideyn, səbəbi nə olursa olsun, övladına bullerə çevrilməməyi, bullinqin qəbuledilməz olduğunu, mənfi duyğulara yol açan destruktiv davranış olduğunu izah etməlidir. Həmçinin valideyn uşağına daima sevgi göstərməyi əsirgəməməli, dostcasına danışaraq problemin həlli yolunu birlikdə tapmalı, hər zaman onu dinləməyə hazır olduğunu nümayiş etdirməli, baş vermiş məsələyə görə uşağa qınaq obyekti kimi baxmamalıdır.

Yuxarıda qeyd edilənlərə əks olaraq demək olar ki, bullinq törətməyə meyilli olan yeniyetmə öz hisslərinin təsiri altına düşməklə hədəfi seçərək onun incidilməsinə, mən-

lik duyğusunun zədələnməsinə, şəxsiyyətinin alçaldılmasına, qrupdan diskriminasiya edilməsinə şərait yaradır. Ailədə hər zaman təhqir edilən, hissləri arxa planda olan və ya nəzərə alınmayan yeniyetmə və ya gənc daima bullinq davranışlarına meyilli olurlar.

Baş vermiş hər hansı psixoloji gərginlik və hadisənin səbəbi insanların hissləri və ya problemə yanaşma tərzi ilə əlaqəlidir. Psixoloq S.L.Rubinşteynin hisslər barədə gəldiyi qənaətə görə, insanlar hissləri öz əhatəsini qavramaqla və öz münasibətini ifadə etməklə təəssüratlar şəklində nümayiş etdirirlər. "Psixi proseslər yalnız dərketmə proseslərindən ibarət deyil, eyni zamanda emosional-iradi proseslərdir. Proseslər yalnız hadisələri dərk etməklə deyil, həm də onlara münasibəti ifadə edir" [2, s. 23].

Müəlliflərin bullinq barədə tədqiqatlarından aydın olur ki, bullinq qəsdən, planlı, məntiqli, eyni zamanda davamlı zorakılıqdır. Lakin klassik anlamda davranış deyil, destruktiv qarşılıqlı təsir formasıdır və özündə aqressiv davranışın bir sıra spesifik növlərini birləşdirir.

Bundan əlavə, zorakılığın insanlara mənfi təsirlərindən biri də odur ki, bullinqə məruz qalan şagird və ya yeniyetmənin akademik, iqtisadi və sosial nüfuzunu risk altına salmaqla gələcəkdə peşə fəaliyyətinə mənfi təsir edir, eyni zamanda işsizliklə qarşılaşma ehtimalını da yüksəldir.

Müəyyən yaş dövründən sonra artıq əmək fəaliyyətinə başlayan cəmiyyət üzvləri iş məkanlarında, istər özəl, istərsə də dövlət təşkilatlarında mobbinqlə qarşılaşırlar. Mobbinqin bullinqdən fərqini və bənzərliyini ayırd etmək üçün mobbinq anlayışına nəzər salaq.

## 2. Mobbinqin iş mühitinə təsiri

Təşkilatlarda tez-tez rast gəlinən sosial-psixoloji təzyiq prosesi mobbinq adlanır. Əmək fəaliyyəti müddətində işçi rəhbərlik və ya iş yoldaşları tərəfindən sistemli və davamlı şəkildə psixoloji basqı ilə qarşılaşarsa, demək olar ki, mobbinqlə üzləşir. Bu səbəbdən də mobbinq psixoloji təzyiq metodu adlanır.

Demək olar ki, mobbinqə böyük və kiçik qurumlarda tez-tez rast gəlmək mümkündür. İşçilərin üzləşdiyi disbalans növü kimi mobbinqlə təhsil mərkəzlərində çalışan müəllimlər, dövlət və özəl bölmənin işçiləri, səhiyyə və digər xidmət sahələrində fəaliyyətlə məşğul olan işçilər qarşılaşırlar.

Mobbinq anlayışı latın dilindən alınma terminidir; *"mobile vulgus"* sözündən əmələ gəlib, mənası isə "qərarsız kütlə" deməkdir. "Mob" sözünün mənşəyi ingilis dilindən alınmış hərəkət formasıdır, "əziyyət, bezdirmə və sıxıntı yaratma" kimi mənaları ifadə edir. Ümumilikdə, "Mob" öz kökünü ingilis dilindən almış hərəkət formasına uyğun olaraq mobbinq sözünə əsaslanır.

Mobbinq barədə ilkin təsəvvürlər məşhur avstraliyalı zooloq və zoopsixoloq Konrad Lorenzə məxsusdur. O, ilk dəfə 1963-cü ildə heyvan davranışlarını müşahidə edərək mobbinq anlayışını irəli sürmüşdür. K.Lorenz kiçik heyvanlarınköməksiz şəraitdə güclü və vəhşi heyvanların hücumuna məruz qalmasını müşahidə edərək, göstərirdi ki, daha sağlam və aqressiv heyvanlar qrupda birləşərək tək və fiziki zəif heyvanlara qarşı fəaliyyət göstərirlər, onlara fiziki təzyiq göstərməklə qrupdan kənarlaşdıra, qova bilirlər. Müşahidələrinə əsasən K.Lorenz "mobbinq" anlayışını formalaşdırdı. O, mobbinq davranışlarının quşlarda daha çox müşahidə edildiyi fikrini irəli sürmüşdür [4, s. 170].

Araşdırmaya əsasən qeyd etmək olar ki, mobbinq kütlənin diskriminasiyasına əsaslanır. K.Lorenzin təcrübəsindən çıxış edərək, deyə bilərik ki, heyvanlarda müşahidə edilən ayrı-seçkiliyə səbəb daha güclü və böyük heyvanların qrup halında birləşərək zəif heyvanlara hücum etməsi, onları ac-susuz və acınacaqlı vəziyyətə salmaq cəhdi ilə bağlıdır.

Mobbinq barədə digər fikir və müşahidələr irəli sürən elm adamı isveçrəli Paul

Heinman olmuşdur. İsveç alimı azyaşlı uşaqları müşahidə etməklə tədqiqat aparmışdır. İxtisasca uşaq həkimi olan P.P.Heinman kiçik yaşlı uşaqların özündən zəif, gücsüz uşağa qarşı aqressiv bezdirici hərəkətlər nümayiş etdirdiklərini açıqlayır və mobbinqin yalnız heyvanlarda deyil, uşaqlarda da rast gəlinən sosial-psixoloji problem olduğunu göstərir. Kiçik yaşlı uşaqlarda kollektiv şəkildə təzahür edən gərginliyi və ya psixoloji münasibəti "mobbinq" adlandırır.

P.P.Heinman apardığı araşdırmalara istinad etməklə mobbinqin kiçik yaşlı uşaqların həmyaşıdları tərəfindən psixoloji və fiziki basqıya məruz qalması, yəni oyundan kənarlaşdırılması, oyuncaqlarının qırılması kimi təsvir edir, təhdid və izolyasiyaedici davranışlara səbəb olduğu fikrini əsaslandırır.

Mobbinq barədə digər fundamental tədqiqat H.Leyman tərəfindən aparılmışdır. Leyman mobbinqi "psixoloji terror", yaxud "psixoloji təzyiq" kimi izah edir. O, 1990-cı ildə çap olunmuş "İş yerində mobbinq və psixoloji terror" mövzusundakı məqaləsində əmək fəaliyyəti zamanı bir və ya bir neçə işçinin mobbinqə məruz qalmasını təsvir edərək, belə qənaətə gəlir ki, mobbinq personalın zehni və fizioloji sağlamlığına zərər verən ciddi nəticələrə səbəb olur [9, s. 119-126].

H.Leymanın mülahizələrinə istinadən qeyd etmək olar ki, mobbinq kütlə və toplu halında olan psixoloji təzyiq üsuludur. Müəssisədə işçilərarası münasibətlərdə etik mədəniyyətin zəif olması mobbinqin meydana gəlməsinə zəmin yaradır. Cəmiyyətdə işsizliyin sayının artmasının səbəblərindən biri də mobbinqin baş verməsidir. Əgər təşkilatda işçilər bir-birinə səmimi, bərabərhüquqlu davranışlar sərgiləsələr, mobbinq əmələ gəlməz.

Sürətlə qloballaşan müasir cəmiyyətdə hər kəs iş yerində, qurumda rəhbər tərəfindən və ya işçilərin bir-birinə qarşı qeyri-etik davranışları ilə qarşılaşa bilər. İşsizliklə bağlı elmi tədqiqatlar zamanı müəyyən edilmişdir ki, hazırda işsizlik probleminin getdikcə artması həm də mobbinqə məruz qalan şəxslərin sayının çoxluq təşkil etməsidir.

K.Xall iş mühitində motivasiyanın mühüm hesab edildiyini təsvir edir. Motivasiya kollektiv arasında işgüzarlığın artmasına stimul verən, eyni zamanda bir-birinə bağlı zəncir kimi təqdim olunur [8, s. 143].

Mobbinq halları mövcud olmayan təşkilatda iş mühitinin daha faydalı, psixoloji mühitin rahat və sağlam olması müəyyən edilmişdir. Mobbinq müddətində işçilərin peşəkarlığına, şəxsiyyətinə, etibarlılığına yönəlmiş təzyiqlər planlı və getdikcə artan davranışlarla davam edir.

Mobbinqin həllinin iki yolu var:

Şəxsin maliyyə gücünün olması, mobbinqə məruz qalan personalın işini itirmək qorxusunun olmaması. Mobbinqlə üzləşən personalın maddiyyata ehtiyacı çoxdursa, böyük ehtimal təkləndiyinin, disbalansın fərqində olsa belə, içinə qapanır, çünki onun işini itirmək qorxusu vardır. Belə xarakterə sahib olan bir işçi mobbinq edənin bir gün peşman olub geri çəkiləcəyini düşünür. Lakin mobbinq edən qarşı tərəfin sakitliyindən sui-istifadə edərək sürətli psixoloji emosional təzyiqi artıraraq qələbə qazanacağına əmin olur. Belə olduqda şəxsin psixoloji çöküşü başlayır.

İşçinin mobbinqin fərqinə varmamasıdır.

Əgər işçi sürətli basqıya məruz qalırsa, ən azından psixoloji olaraq özünü hazırlamalıdır. Mobbinqdən qaçmaq əvəzinə, mobbinq edənin həssas yerini, etdiyi səhvləri öyrənmək, sübutlar toplamaq və digər işçilərin arasında yaymaqdır. Əgər personala və ya kollektivə edilən eyni qorxunu o da hiss edərsə, mobbinq davam edə bilər [6, s. 50].

İnsanda psixoloji yorğunluq sindromu şəxsin özünə qapanmasına, depressiv vəziyyətə, özünə zərər vermə və digər nəticələrə səbəb olur. Psixoloqlar yorğunluğun böyük bir hissəsinin zehni və emosional səbəblərdən qaynaqlandığını müəyyən etmişlər. İngiltərə psixoloqu J.A. Hadfield "Güc Psixologiyası" *(The Psychology of Power)* adlı kita-

bında "Yorğunluğun əksərən zehni səbəblərdən başladığını" vurğulamışdır [7, s.19].

İş mühitində idarəetmə sistemi düzgün və nizamlı qurularsa, işçilər arasında mobbinq müşayiət edilməz. Hətta idarəedici heyət də personalın nəinki iş qabiliyyətini, həm də şəxsiyyətini dəyərləndirməli, bəzi məqamlarda həmsöhbət olaraq ortaq fikirlərə gələ bilər. İdarəetmə psixologiyasında rəhbərlik və personal arasında üslub vacib və nəzərə alınmalı nüanslardan biridir. İdarəetmə psixologiyasının təsnifatını ilk dəfə K. Levin hazırlamış və üç növünü ayırd etmişdir: demokratik, avtoritar və liberal [3, s.130].

Hər üç idarəetmə üslubunun özünəməxsus funksiyaları var. Avtoritar üslub mobbinqə uyğun rəhbərlik tərzidir. Bu üslubun mənfi cəhəti idarəetmənin rəhbərin əlində cəmləşməsi, həddindən artıq tələbkarlıq, hədələmə, işgüzarlığın sönməsi, daima müəssisədə əhval-ruhiyyənin korlanması, hər səhvə görə işçilərin kollektiv şəkildə danlanmasıdır və bu üslubu mobbinqə aparan davranış üsulu hesab etmək olar. Kollektivdə qeyri-qənaətbəxş psixoloji mühitin hökm sürməsi müddətində işçilər bir-birinə qarşı münasibətdə emosional, psixoloji təzyiq göstərməyə başlayırlar.

Demokratik üslubun üstünlüyü qarşılıqlı hörmətə əsaslanır. Rəhbər və heyət bərabərhüquqlu hesab edilir. Belə ki, işə başlayan personal üçün ilk iş gününün əhəmiyyəti böyükdür. Buna görə də rəhbər personalı ilk iş günü səmimi, gülərüzlü qarşılamalı, təşkilatın şərtləri, iş saatları, vəzifəsi və məsuliyyəti barədə məlumat verməli, otağını və iş stolunu göstərməli, öyrədici və köməksevər olmalıdır. Təbii ki, bu kimi davranışlar yalnız ilk iş günü deyil, bütövlükdə personalın işlədiyi müddətdə davamlı olmalıdır [5, s.15].

Q.Ammelburq "Gələcəyin müəssisəsi: rəhbərliyin strukturu, metodları və üslubu" əsərində göstərir ki, rəhbərlik etmək insanlara təsir göstərmək deməkdir. Bu təsir elə olmalıdır ki, insanlar özlərinin yerlərini, nöqteyi-nəzərlərini, fikir və hərəkətlərinin yönümünü dəyişməlidir [1, s. 227].

**Nəticə**

Yuxarıda verilən şərhləri xülasə edərək göstərə bilərik ki, bullinq və mobbinq toplu, qrup halında baş verən oxşar psixoloji təzyiq metodları olmasına baxmayaraq, bir çox fərqli xüsusiyyətləri də vardır. Bullinq kiçik məktəbli yaş dövründən başlayaraq yuxarı siniflərə, hətta ali təhsil müəssisələrinə qədər davam edən sosial və psixoloji basqıdır. Bir şəxsin bir nəfər və ya bütöv bir qrup üzvü tərəfindən təklənməsidir. Mobbinq isə cəmiyyətdə kütlə halında mövcud olan, həmçinin iş məkanlarında baş verən, yəni böyük yaş qruplarını əhatə edən sosial və psixoloji təzyiq vasitəsidir. Hər iki anlayışın ortaq cəhəti qrup daxilində mövcud olan, eyni zamanda bir insana bir nəfər və ya kollektiv üzvləri tərəfindən sözlü, psixoloji və fiziki hücumun edilməsidir. Bullinq və mobbinqin mənfi təsirləri insanda uzun müddət zərərli təsirlərə yol açır. Mobbinq zamanı işçi əmək fəaliyyətini mobbinqə məruz qaldığı təşkilatda davam etdirmək istəmir və ya istefa verir. Bullinqdə isə təhsilalan məktəbə getməyi rədd edir, çünki akademik göstəriciləri zəifləyir, daima özünə qapalı qalır. Hər iki sosial və psixoloji təzyiq vasitəsi cəmiyyət üçün mənfi problemlər yaratmaqda davam edir. Bullinq və mobbinqin qarşısını almaq və ya müəyyən qədər azaltmaq məqsədilə aparılan davamlı tədqiqatların müsbət nəticələri də mövcuddur.

## ƏDƏBİYYAT


1. Bayramov Ə., Əlizadə Ə. Sosial psixologiya. Bakı: Qapp Poliqraf, 2003, 356 s.
2. Hacıyeva A. Emosional psixologiya. Sumqayıt: SDU redaksiya, 2020, 228 s.
3. Haqverdiyev B. İdarəetmə psixologiyası. Bakı: Elm, 2008, 304 s.
4. Taim-Metodika və Pedaqogika vəsait. Bakı: Maksimum, 2024, 181 s.
5. Aytürk N. Yönetim sanatı- Başarılı Yönetim ve Yönetimcilik. İstanbul: Göktuğ Ofset, 2014, 286 s.

6. Atalay Ö. Yöneticinin Başarısızlık rehberi. İstanbul: Cere, 2016, 270 s.
7. Şensoy G. İşten ve Yaşamdan Zevk Almanın Yolları. İstanbul: Kitap, 2012, 160 s.
8. Сеидов С. Психология менеджмента. Баку: Чашыоглу, 2000, 228 с.
9. Leyman H. Mobbing and Psychological Terror at Workplaces // Springer Publishing Company, Violence and Victims, 1990, C. 5, No:2, s.119-126.

***Резюме***

***Мехин Насибова***

***Буллинг и моббинг как разные стороны социального насилия***

В статье исследуются социологические и психологические проблемы, с которыми сталкиваются ученики в средних учебных заведениях, такие как возникновение буллинга, его характерные особенности и последствия. Далее рассматриваются различные и схожие подходы к понятиям буллинг и моббинг, проводится их сравнение.

Также приведён краткий обзор истории понятия моббинга и трудностей, с которыми сталкиваются сотрудники на рабочем месте, таких как риск потери работы и другие характерные критерии.

Анализы показывают, что по мере развития буллинга и моббинга, они продолжают интегрироваться в повседневную жизнь и проявляются как неотъемлемая часть общества. Споры и насилие существовали в человеческом обществе с древности, но с течением времени возникновение нового явления – буллинга среди учащихся – оказывает негативное влияние на образовательные учреждения.

Таким образом, можно прийти к выводу, что феномены буллинга и моббинга представляют собой длительное психологическое давление, продолжающееся в течение шести месяцев. Эти явления часто встречаются в разных странах и представляют собой психологическое насилие, которое в конечном итоге приводит у жертвы к рассеянности внимания, паническим атакам, потере аппетита, посттравматическому стрессу и другим проблемам.

Хотя с выдвижения первых теорий, связанных с буллингом, прошло не так много времени, со временем буллинг широко распространился среди школьников, и психологическое давление стало частью повседневной школьной среды. Моббинг же – это психологическое давление, которому часто подвергается работник на своём рабочем месте.

В результате исследований было установлено, что буллинг – это неадекватное поведение, которому школьники и подростки подвергаются часто и на протяжении длительного времени. Моббинг же – это систематическое и продолжительное психологическое давление, с которым сталкиваются представители более взрослой возрастной группы на рабочем месте Это разновидность дискриминации. Кроме того, при буллинге и моббинге дисбаланс между сильной и слабой стороной всегда проявляется.

Обобщая, можно отметить, что оба этих неадекватных типа поведения негативно влияют на каждого члена общества, вызывая у жертв психологические, физиологические и психосоматические симптомы.

**Ключевые слова:** *буллинг, психология, моббинг, неадекватное поведение, дискриминация.*

***Summary***

***Mehin Nasibova***

***Bullying and Mobbing as Different Aspects of Social Violence***

The article investigates the sociological and psychological problem of bullying in secondary education institutions, its emergence, characteristic features, and effects. Later, the concepts of bullying and mobbing are analyzed and compared with different but similar approaches.

A brief overview of the history of mobbing and the difficulties faced by staff in the workplace, the risk of losing their job, and other characteristic criteria are also noted.

Analyses show that as bullying and mobbing progress, they continue to integrate into our daily lives and manifest as an inseparable part of society. Conflicts and violence have always existed as long as human society has existed, but over time, the emergence of the new phenomenon of bullying among students has a negative impact on educational institutions.

Based on this conclusion, bullying and mobbing can be defined as persistent pressure lasting for

six months. Additionally, bullying and mobbing are psychological pressures frequently encountered in every country, which eventually cause problems such as lack of concentration, panic attacks, appetite loss, and post-traumatic stress in the victim.

Although not much time has passed since the initial theories about bullying were introduced, over time, it has become widespread among schoolchildren and turned into a form of psychological pressure that students encounter daily in the school environment. Mobbing, on the other hand, refers to the psychological pressure frequently experienced by an employee engaged in work activity.

Research shows that bullying is an inappropriate behavior pattern frequently and persistently faced by students and adolescents. Mobbing is a type of systematic and continuous discrimination faced by an older age group in the workplace environment.

Furthermore, bullying and mobbing always show an imbalance between the strong and the weak side.

In general, it can be stated that both types of inappropriate behavior negatively affect every aspect of society and can cause psychological, physiological, and psychosomatic symptoms in victims.

**Key words:** *bullying, psychological, mobbing, inadequate behavior, discriminat*

Redaksiya heyətinin üzvü f.e.d., prof. Rüstəmov İzzət Əşrəf oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.